UOT 479.24

*İ.C.Əmirli*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: amirovisrail04@gmail.com*

# BÖYÜK COĞRAFİ KƏŞFLƏR: ŞƏRQ VƏ QƏRB

*Məqalə Böyük Coğrafi kəşflərdən və onun nəticələrindən bəhs etməkdədir. Böyük Coğrafi kəşflər nəticəsində yeni materiklərin kəşf olunması və məskunlaşdırılması və bununla yanaşı dünyanın iqtisadi nöqteyi nəzərindən yer dəyişdirməsi öz əksini tapmaqdadır. Məqalədə İpək yolunun sıradan çıxması, bununla bərabər XX əsrin sonlarında yenidən fəaliyyətə başlaması göstərilmişdir. Böyük Coğrafi kəşflərin dünya müharibələrinə səbəb olması, lakin zamanla sıradan çıxması göstərilmişdir.*

*Açar sözlər:* Böyük Coğrafi kəşflər, müstəmləkə, feodalizm, İpək yolu, Dünya müharibələri

*Böyük Coğrafi kəşflər və İpək yolu.* Demək olar ki, müasir dünya dövlətləri xəritəsinin hazırki vəziyyətdə olmasının səbəblərindən biri də Böyük coğrafi kəşflərdir. Belə ki, XV əsrə qədər Avropa dövlətləri böyük okeana çıxa bilmirdilər.

Lakin XV əsrdə karavella gəmiləri istehsal olundu. Bunun nəticəsində yeni materiklər kəşf olundu. Buraya Amerika və Avstraliya materiklərini göstərmək olar. (Sonradan bu materiklər məskunlaşdırıldı və yeni dövlətlər meydana gəldi). Avropa dövlətləri okeanların imkanlarından istifadə edərək istənilən ərazilərə getmək imkanları qazandılar. Demək olar ki, eyni vaxtda müxtəlif ölkələrlə ticarət etmək üçün şərait yarandı.

İnternet məqalədə göstərilir ki, Şərq və Qərb arasındakı ticarət İpək yolu vasitəsilə həyata keçirilirdi. Uzaq Şərqdən gətirilən bu məhsullar bir neçə ölkədən keçdiyindən Avropada bahalı olurdu. Avropalılar bu məhsulları almaq üçün yeni yollar axtarmağa başladılar (2).

Böyük coğrafi kəşflərə qədər Şərq ölkələri iqtisadi baxımdan daha inkişaf etmiş formada idi. Bu zaman qərb ölkələrində belə təssəvür var idi ki, adları qeyd olunan ölkələrdə çaylar qızılnan axır. Burada bir faktı söyləmək lazımdır ki, xaçlı yürüşlərinin müxtəlif səbəbləri var idi ki, onlardan biri də bu amil idi.

Böyük coğrafi kəşflərə qədər əksər məhsullar quru yolu vasitəsilə daşınırdı. Xüsusilə şərq ölkələrindən, qərbi Avropaya və yaxın orta şərqdə yerləşən digər ölkələrə daşınırdı. Burada quru ticarət İpək yolunun çox mühüm rolu var idi. İpək yolu bir neçə dövlətdən başlayır və bir neçə dövlətin ərazisindən keçərək məhsulların mühüm bazarlara çatdırılmasında əsas mövqeyə malik idi.

Lakin, Böyük coğrafi kəşflər nəticəsində yeni ölkələr Qərbi Avropa ölkələri tərəfindən kəşf olundu. Bu amil Qərbi Avropa ölkələri ilə əsasən Asiya və Afrikada yerləşən bu dövlətlər arasında iqtisadi əlaqələrin inkişafına səbəb oldu. Bunun nəticəsində əmtəə və pul münasibətlərinin inkişafı üçün şərait yarandı. Feodalizmdə mövcud olan qismən natural təsərüfata ciddi zərbə dəydi. İnternet məqalədə məlumat verilir ki, XV yüz ilin sonlarında Avropalılar okeanlara çıxmağa başladılar. Bunun nəticəsində yeni materiklər kəşf olundu və feodalizmi sona çatdıracaq iqtisadi zənginləşmə dövrünün başlanmasına səbəb oldu (3).

Burada bir məsələni qeyd etmək lazımdır ki, Böyük Coğrafi kəşflərə qədər Avrasiya materikində yaşayan xalqlara çox az sayda bitki və meyvə növləri və irqləri məlum idi.

Böyük Coğrafi kəşflərdən sonra Amerika, Afrika və Asiya qitəsindən yeni meyvə, bitki irqləri gətirildi və əkin sahəsində çox çeşidlilik yarandı. Bunun nəticəsində Avropa ölkələri bu bitki meyvələrin istifadəsinə daha tez başladı. Avrasiya qitəsində isə bu bitki və meyvələrin əkilməsi feodalizmin (torpaq üzərində məhdud mülkədarlıq) XX əsrdə sona çatmasından sonrakı dövrə təsadüf edir. Bunun nəticəsində kənd təsərrüfatında bitki və meyvələrin çox çeşidliyi yarandı.

Böyük Coğrafi kəşflərin Avropa ölkələri üçün ən mühüm cəhəti ondan ibarət oldu ki, Hindistana gedən dəniz yolu kəşf olundu. Bunun Şərq ölkələrinə mənfi cəhəti ondan ibarət oldu ki, uzun illər mövcud olan İpək yolu sıradan çıxdı. Şərq ölkələri getdikcə iqtisadi baxımdan zəifləməyə qərb ölkələri zənginləşməyə başladılar. Bunun nəticəsində Avropa dövlətlərində ilk dəfə olaraq, Ost Hind şirkətləri yarandı.

Onu da qeyd etmək lazımdır ki, bu dövrdə Yaxın və Orta Şərqdə iki türk müsəlman dövləti olmuşdur, Osmanlı və Səfəvilər dövləti.

İnternet məqalədə məlumat verilir ki, Səfəvilər dövlətində Şah Sultan Hüseynin dövründə dövlət xəzinəsi boşalmış, məmurlar xəzinəni doldurmağın yeganə yolunu vergi və mükəlləfiyyətlərin həcmini artırmaqda görürdülər (1). Bunada səbəb quruda mövcud olan İpək yolunun sıradan çıxması səbəb olmuşdur. Çünki əsas gəlirlərin torpaq üzərində olması və vergilərin əsasən natura, ilə olması, o cümlədən quruda mövcud olan İpək yolunun sıradan çıxması xəzinənin boş qalmasına səbəb olmuşdu.

Asiyada mövcud olan Osmanlı dövlətində və o cümlədən Uzaq Şərq və Cənubi Şərqi Asiya dövlətlərində bu dövrdə, feodalizm hökm sürürdü. Ahmet Meral öz əsərində yazır ki, Böyük Coğrafi kəşflər nəticəsində ilk öncə İspaniya və Portuqallar, daha sonra İngiltərə, Hollandiya və Fransa müstəmləkə imperatorluqları qurdular. Ticarət yolları və ticarət mərkəzləri yer dəyişdirdi. Aralıq dənizi limanları əhəmiyyətini itirdi. Aralıq dənizi ticarətindən pay alan Osmanlı və İtaliya şəhər dövlətləri iqtisadi cəhətdən zəiflərkən, İspaniya və Portuqaliya ardınca İngiltərə və Hollandiya gücləndilər (4). Bu dövrdən başlayaraq uzun müddət XV-XX əsrlərdə ipək yolu demək olar ki, istifadə olunmadı.

İpək yolunun yenidən aktuallaşması isə elmi texniki yeniliklər tətbiq olunduqdan sonrakı dövrə təsadüf etdi. Belə ki, XX əsrdə yeniliklər nəticəsində avtomobil yolları çəkildi, dəmir yolları xətləri çəkildi, təyyarə yolları fəaliyyətə başladı. Bu amil yüklərin daşınmasına da təsir etdi.

Bunun nəticəsində şərqdən qərbə və əksinə yüklərin daşınması üçün şərait yarandı. Bu cür şərait SSRİ dağıldıqdan sonrakı dövrə təsadüf etdi. Belə ki, Mərkəzi Asiyada və Qafqazlarda müstəqil dövlətlər yarandı. Bunun nəticəsində qarşılıqlı iqtisadi münasibətlərin inkişafı nəticəsində İpək yolu yenidən aktuallaşdı.

İpək yolu ilə yük daşımalar yenidən başladı. Hazırda, İpək yolu Şərqdən Qərbə və əksinə yüklərin daşınmasını həyata keçirməkdədir.

Feodalizm dövründə isə Böyük Coğrafi kəşflər nəticəsində qərb dövlətlərinin Şərqlə, Asiya dövlətləri ilə, bağlı yeni planları meydana çıxdı.

*Böyük coğrafi kəşflər və müstəmləkəçilik.* Böyük coğrafi kəşflər nəticəsində Amerika, Afrika, Hindistan, Cənub şərqi Asiya və Uzaq Şərq ölkələri avropalılar üçün kəşf edilmiş oldu. Bu ölkələr qeyd olunan ölkələrlə ticarət münasibətləri qurdular və zamanla bu ölkələri müstəmləkələşdirməyə başladılar. Bununla əlaqədar türk müəlliflər qrupunun yazdığı əsərdə belə göstərilir. Avropa ölkələri müstəmləkəçilik nəticəsində qeyd olunan dövlətlərin qaynaqlarını istismar edərkən, yerliləri xəraca cəlb etmiş və kölələşdirilmişdilər (5).

Ticarət əlaqələrindən işğalçılıq münasibətlərinə qədər yüksələn müstəmləkəçilik XVI əsrdə başlasada bunun nəticələri XX əsrə qədər gəlib çatmışdır. XX əsrdə demək olar ki, Şərq ölkələri, Cənub Şərqi Asiya, Hindistan müstəmləkə imperiyalarının tərkibində idi.

David Arnold yazır ki, Vasgo da Qammanın 1498-ci ildə Hindistana gedən dəniz yolunu kəşf etməsi nəticəsində portuqallar Şərqi Afrikada Mozambikdən Malayya yarımadasına qədər, Hind okeanına qədər çatmış, bu ərazilərdə yayılmışdılar (6).

İnternet məqalədə deyilir XV yüz illiyin əvvəllərində Avropada Böyük Coğrafi kəşflərə damğasını vuranlar Portuqaliya və İspaniya idi (7).

Müstəmləkə imperiyaları deмək olar ki, əksər Avropa dövlətlərinə məxsus idi. Zamanla bu ərazilər müstəmləkəçilikdən daha irəli gedərək işğal olunmağa başladılar və bunun nəticəsində müstəmləkə imperiyaları yarandı. Bu müstəmləkə ölkələri Şərq ölkələri ilə yanaşı, Cənub Şərqi Asiya, Uzaq Şərq, Afrika ərazilərini əhatə etməyə başladı.

Avropa dövlətləri bu ərazilərin qaynaqlarını istismar etməklə yanaşı, xristian dinini də bu ərazilərdə yaymağa başladılar. Məhz bunun nəticəsidir ki, Koreya, Filippin, Vyetnam kimi dövlətlərin əhalisi bu gün xristian dininə sitayiş edirlər.

Avropa şirkətləri bu ölkələri istismar etməklə yanaşı, həm də şərq ölkələri ilə ticarət münasibətləri də aparırdılar. İlk vaxtlarda odlu silah, şərab və digər qitələrdən gətirilən bitki və meyvələri satırdılar. Bununla yanaşı bu ölkələrdən insanları qul kimi Amerika qitəsinə daşıyırdılar.

Lakin zamanla Avropa tacirlərinin Şərq ölkələri ilə ticarət münasibətlərində yeniliklər baş verdi. Bu ticarət münasibətləri tarixi ədəbiyyatlarda konsesiyaçılıq adlanır. Konsesiyaçılıq fəaliyyətlərinin meydana çıxması əsasən Avropada sənaye çevrilişinin baş verməsindən sonrakı dövrə təsadüf edir.

Onlar müstəmləkə ərazilərində sənaye çevrilişi nəticəsində Avropa ölkələrində əldə olunmuş yenilikləri şərq ölkələrində tətbiq etməyə başladılar. Bununla əlaqədar olaraq ilk konsesiyalar əldə edildi. Bunun nəticəsində müstəmləkə ərazilərində dəmiryolu xətləri, elektrik şəbəkəsi, teleqraf xətləri, yollar, su xətləri və s texniki yeniklər həyata keçirilməyə başlandı. Bütün bunlar Avropa şirkətlərinin özləri tərəfindən müstəmləkə ölkələrində tətbiq edilirdi. XVI əsrdə başlayan konsesiyaçılıq fəaliyyəti XX əsrə qədər davam etmişdir. Bunun nəticəsində müstəmləkə münasibətləri daha da dərinləşmişdir. Ahmet Kavas öz məqaləsində belə yazır XIX yüz ilin ortalarından başlayaraq və XX yüz ilin əvvəllərində Avropa dövlətləri dünyanın bir neçə ölkəsi xaric tamamını işğal edərək müstəmləkələşdirmişdilər (8).

*Böyük Coğrafi kəşflər və dünya müharibələri.* Birinci Dünya müharibəsi imperializm müharibəsi idi. Birinci Dünya müharibəsi illərində Osmanlı dövlətini çıxmaqla yerdə qalan imperiyalar müstəmləkə dövlətləri idi. Bu müstəmləkə imperiyaları Böyük Coğrafi kəşflər nəticəsində əldə olunmuşdu. Birinci Dünya müharibəsi illərində müstəmləkələr də müstəmləkəçi dövlətlərlə bir yerdə müharibələrə cəlb olunmuşdular. Bunun nəticəsində müstəmləkəçi imperiyalar yeni ərazilər ələ keçirmək uğrunda savaşırdılar.

Birinci Dünya Müharibəsinin sonuna həsr edilmiş Paris sülh konfransı burada yekun qərarların verilməsində mühüm amil oldu. Məğlub imperiyaların əraziləri qalib imperiyalar tərəfindən bölüşdürüldü. Buraya Osmanlı dövləti, Almaniya, Avstriya Macarıstan imperiyalarının əraziləri daxil idi. Bu müstəmləkələr müxtəlif adlarla qalib dövlətlərə verildi. Buraya əsasən Şərq ölkələrində, Cənub-Şərqi Asiyada və Afrikada yerləşən müstəmləkələr daxil idi. Bunun nəticəsində qalib imperiyaların müstəmləkələrinin ərazisi daha da böyüdü.

Bu müstəmləkələrdən Fransa, İngiltərə, İtaliya İspaniya, Amerika, Portuqaliya kimi dövlətlər böyük gəlirlər əldə etməyə başladılar.

İki dünya müharibəsi arasında müstəmləkəçilik nəticəsində Avropa ölkələri zənginləşir və müstəmləkə dövlətlərindən xammal daşınırdı.

Bu zaman Birinci Dünya müharibələrinin nəticələrinə əsasən Şərqdə yerləşən müsəlman dövlətlərinin əksəriyyəti İngiltərə, Fransa kimi dövlətlərin mandatlığında verildilər. Antanta dövlətləri olan bu dövlətlər zəngin neft yataqları olan bu ölkələri istismar edir, əvəzində cüzi

miqdarda vergi ödəyirdilər. Çünki Antanta dövlətləri olan bu ölkələr elmi-texniki yeniliklərlə daha tez tanış olmuş, mühərriklə işləyən texnikalardan daha tez istifadə etməyə başlamışdılar. Yanacaqla işləyən avtomobil mühərriklərinin əhəmiyyətini başa düşürdülər. Bu zaman müsəlman şərqində hələ feodalizm idi. Bəzi ölkələrdə feodalizm kapitalizmlə paralel şəkildə inkişaf edirdi.

Bu zaman müsəlman şərqində mövcud olan Osmanlı dövləti süqut etmiş, onun yerində yaranan türk hökuməti eyni vaxtda Antanta dövlətlərini tək başına məğlub etmişdi. Birinci Dünya müharibəsində müttəfiqləri ilə bacarmadığı işi tək başına həyata keçirmişdi.

Ancaq yeni yaranan türk dövlətində də feodalizm münasibətləri davam edirdi.

İran ərazisində mövcud olan Qacarlar dövlətində də bu zaman çevriliş baş vermiş, hakimiyyətə Pəhləvilər gəlmişdilər. Qacarlar hököməti də Avropa ölkələrinə çox saylı konsesiyalar vermişdilər ki, bunun nəticəsində yarımmüstəmləkəyə çevrilmişdilər.

Bu dövrdə Almaniya və İtaliya dövlətləri Birinci Dünya müharibəsinin nəticələrindən narazı qalmışdılar. Ona görə də onlar bununla əlaqədar yenidən müharibəyə hazırlaşırdılar.

Buna görə də, XX əsrin 30 illərindən başlayaraq, dünya ölkələrinin qübləşməsi daha da genişlənir. Almaniya, İtaliya, kimi dövlətlər Birinci Dünya müharibəsi illərində itirdikləri əraziləri və müstəmləkələrini geri qaytarmaq üçün bloklaşmaya başlayırlar. İkinci Dünya müharibəsi Hitler bloku dövlətləri, (Almaniya,Yaponiya, İtaliya) və anti Hitler bloku dövlətləri (SSRİ. ABŞ, İngiltərə, Fransa) arasında baş verir. Bu müharibədə müstəmləkə dövlətləri də iştirak edirlər. Müharibə anti Hitler bloku dövlətlərinin qələbəsi ilə nəticələnir.

İkinci Dünya müharibəsinin sonunda yeni dövlətlər yaranır. Bunlar Sosializm və kapitalizm dövlətləri şəklində bölünürlər. Şərqdə mövcud olan müstəmləkə dövlətlərinin əksəriyyəti müstəqil dövlətlər olaraq yaranırlar. Buraya əsasən Fransanın və İngiltərənin mandatlığında olan Ərəb ölkələri, o cümlədən Cənub Şərq Asiya ölkələri daxil olurlar.

Afrikada mövcud olan müstəmləkələr isə əsasən XX əsrin 60–cı illərində müstəmləkələrdən azad olmuşdur.

Böyük coğrafi kəşflər nəticəsində meydana gələn müstəmləkəçilik artıq qismən aradan qalxmağa başlayır. Müstəmləkəçiliyi yeni münasibətlər əvəz edir. Buraya siyasi, iqtisadi və mədəni müstəmləkəçiliyi daxil etmək olar. Müstəmləkəçiliyin sona çatmasının bir əhəmiyyəti də ondan ibarət olur ki, bəzi xalqlar müasir dünya xəritəsində dövlətlərini birləşmiş şəkildə qazanırlar. Buraya Hindistan, Laos, Kambocca və digər dövlətləri aid etmək olar. Bəzi xalqlar isə müstəmləkəçilik nəticəsində bölünmüş vəziyyətdə dövlətlərə sahib olurlar. Buraya Vyetnam, Koreya və digər dövlətləri göstərmək olar.

## ƏDƏBİYYAT

1. XVIII əsrin əvvəllərində Səfəvi dövlətində siyasi vəziyyət. www.e-derslik.edu.az/books.
2. Coğrafi keşifler ve sonucları, www.bilgicik.com.
3. Büyük Coğrafi keşifler www.serenti.org/buyuk-cografi-kesifler 15 may 2013.
4. Ahmet Meral. Keşifler ve sömürgeçilik www. yuzaki. com.
5. Azmi Özcan və s., Sömürgeçilik tarihi (Afrika-Asiya), Eskişehir-2014, I baskı, s. 7.
6. David Arnold. Coğrafi keşifler tarihi ,www. Muharrem balci.com.
7. Büyük denizlerin aşılmasıyla degişen dünya www://sarkac.org/2019
8. Ahmet Kavas, Sömürgeçilik, islamansiklopedisi. org.tr.

УДК 479.24

*И.Дж.Амирли*
*Бакинский Государственный Университет*

ВЕЛИКИЕ ГЕОГРАФИЧЕСКИЕ ОТКРЫТИЯ: ВОСТОК И ЗАПАД
*РЕЗЮМЕ*

*Ключевые слова.* Великие географические открытия, колониализм, феодализм, Шелковый путь, мировые войны

Статья о Великих географических открытиях и их последствиях. В результате Великих географических открытий находят отражение открытие и заселение новых континентов и одновременно изменение мира с точки зрения экономической. В статье показан провал Шелкового пути и его возобновление в конце XX века. Доказано, что великие географические открытия приводят к мировым войнам, но со временем прекращаются.

UDC 479.24

*I.J.Amirli*
*Baku State University*

GREAT GEOGRAPHICAL DISCOVERIES: EAST AND WEST
*SUMMARY*

*Key words:* Great Geographical discoveries, colonialism, feudalism, Silk Road, World Wars

This article is about the Great Geographical discoveries and their consequences. As a result of the Great Geographical discoveries, the discovery and settlement of new continents and, at the same time, the changing of the world from the point of view of the economic point of view are reflected. The article shows the failure of the Silk Road and its resumption at the end of the 20th century. Great Geographical discoveries have been shown to lead to world wars, but to fizzle out over time.

***Daxil oldu: 26.01.2023-cü il***